# *Şəhid atası:* "Bizi ayaqda tutan, qürurlandıran odur ki, Xocalının qisası alındı"

**44 günlük Vətən müharibəsində neçə-neçə Azərbaycan oğlu böyük hünərlə ana yurdun bütövlüyü, təhlükəsizliyi naminə özünü odun-alovun içinə ataraq Zəfər tariximizi yazdı. Vətənə sevgisindən, onun qarşısındakı borcun məsuliyyətindən, milli qürur hissindən güc alaraq ən uca igidlik, qəhrəmanlıq zirvəsini fəth edənlərin bir qismi bu dünyadan qəlblərə köçərək şəhid adı qazandı.**



Belə oğullarımızdan biri də Xüsusi Təyinatlı Qüvvələrin əsgəri Muraz Cabbarovdur.

Cabbarov Muraz İlham oğlu 2000-ci il martın 7-də Daşkəsən rayon Zağalı kəndində anadan olub. Qazaxyolçular tam orta məktəbini bitirən Muraz 2018-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Şəhidin atası İlham Cabbarov deyir ki, Muraz elə uşaq yaşlarından vətənpərvər olub. Vətən qarşısında borcunu ödəmək üçün həqiqi hərbi xidmətə böyük həvəslə yollanıb.

"Hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirdi. Həmişə silahlarla necə davranmağı çox öyrənmək istəyirdi. Hərbi xidməti zamanı da sevinirdi ki, ona bunları lazımınca öyrədirlər. Çox məsuliyyətli idi. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində də igidlik göstərdi, cəsur davrandı, yoldaşları ilə birgə üzərinə düşən tapşırıqları yerinə yetirdi. Sonda isə Vətən uğrunda şəhid oldu", - deyə İlham Cabbarov bildirir.

Az bir zamanda döyüş sirlərinə yiyələnən və bir çox silahdan istifadə etməyi bacaran Muraz Cabbarov Kəlbəcər və Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 20-də Füzuli istiqamətində gedən döyüş zamanı snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Noyabrın 2-də Daşkəsən Şəhidlər xiyabanında dəfn edilib.

"Həmin gün sanki kürəyimə bıçaq sancıldı. Ürəyimdə narahatlıq var idi. Zəng edib, oğlumun şəhid olduğunu öyrəndim, nəşi tapılan günədək evdə deyə bilmirdim. Qürur duyuram ki, Vətən uğrunda elə bir oğul böyütdüm. Əsrlərin qələbəsi olan bu qələbə Prezidentimizin uğurlu siyasətinin, ordumuzun peşəkarlığının, xalqımızın birliyinin qələbəsi oldu, Xocalı ləkəsini alnımızdan sildi. Oğul dərdi çox ağır dərddir, amma bu gün bizi ayaqda tutan, qürurlandıran odur ki, Xocalının qisası alındı", - deyə şəhid atası vurğulayır.

Şəhidin anası Zeynəb Cabbarova da övladının şəhidlik zirvəsinə yüksəlməsi ilə qürur duyduğunu deyir: "Muraz yaxşı oğul olub. Deyirdi ki, "qarğa kimi çox yaşamaqdansa, qartal kimi ömrüm olsun, adım qalsın". Həmişə söyləyirdilər ki, "oğul düşmən çəpəridir". Mən də deyirdim ki, görən nəyə görə belə deyirlər. Demək ki, həqiqətən belə imiş. Onunla həmişə fəxr edirdim. Yenə də fəxr edirəm, çünki o, ad qoyub getdi. Şəhid adı böyük bir ucalıqdır. Biz ölüb getsək də, balam həmişə yaşayacaq" deyən Zeynəb Cabbarova əlavə edir ki, Muraz 4 qardaşı ilə yanaşı, yetişən nəsillər üçün də qəhrəmanlıq örnəyidir.

Şəhid Muraz Cabbarov Prezident İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Azərbaycan. - 2025.- 7 oktyabr (№215).- S.8.